# Xalq – iqtidar birliyinin təntənəsi

**Bu gün dünyanın ən müxtəlif guşələrində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan bayrağı dalğalanır. Harada belə bir fakt görsək, dərhal dövlət başçımızın məşhur ifadəsi yada düşür: “Bu, ölkəmizdəki xalq–iqtidar birliyinin təntənəsidir”. İşğaldan azad edilmiş ərazilərimizdə bir-birinin ardınca çoxsaylı mühüm obyektlər istifadəyə verilir. Yenə ürəyimizdən həmin ifadə keçir. Paytaxtımız dünyanın bütün beynəlxalq təşkilatlarının möhtəşəm tədbirlərinə evsahibliyi edir. Tədbir iştirakçısı olan əcnəbilər də məhz həmin ifadəni təkrarlayırlar.**

Bəli, biz bir xalq olaraq dövlətimizin ətrafında sıx birləşməyin nümunəsini yaratmışıq. Məhz həmin sıx birliyin nəticəsidir ki, uzun illərdən bəri itirdiyimiz torpaqları qaytara bilirik. Məhz həmin birliyin hesabına şanlı ordumuz xalqımızın 30 illik intizarına 44 günlük müharibə ilə son qoymağı bacardı.

**(ardı 5-ci səhifədə)**

*Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik... Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Xalq – iqtidar birliyinin təntənəsi

**(əvvəli 1-ci səhifədə)**

Ölkə əhalisinin hamısı, üstəlik, beynəlxalq aləmdəki dost və tərəfdaşlarımız da dönə-dönə xatırladırlar ki, gənc müstəqil Azərbaycan dövləti bugünkü möhtəşəm uğurlara Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaqgörən siyasəti, Vətəninə və torpağına olan böyük məhəbbəti, Heydər Əliyev siyasətinə sədaqəti sayəsində nail olmuşdur. Cənab Prezidentin fikri isə belədir: "Bizim bütün uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır. Mən inanıram ki, bu birlik bizə hələ daha böyük uğur və nailiyyətlər qazandıracaq".



Biz hamımız haqlı olaraq və qətiyyətlə deyirik ki, Azərbaycan Ordusu, igid əsgər və zabitlərimiz mərdlik və şücaət göstərərək torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Cənab Prezident isə deyir ki, ölkəmizdə mövcud olan xalq – ordu birliyinin nəticəsidir ki, artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq – iqtidar – ordu birliyi dayanır və 44 günlük Vətən müharibəsində bu birlik daha da bərkiyərək, "dəmir yumruğ"a çevrildi.

Bu sətirləri ölkəmizdəki xalq– iqtidar birliyi haqqında deyilmiş, daha doğrusu, şahidi olduğum bəzi fikirlərlə davam etdirmək istəyirəm. Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Zəngilanda yeni beynəlxalq hava limanının açıldığı gün idi. Bakıda türkiyəli jurnalistlərdən biri ilə rastlaşdıq. Xeyli söhbət etdik. Mən qardaş Türkiyə Cümhuriyyətinin bütün proseslərdə, xüsusən, İkinci Qarabağ müharibəsi zamanı yanımızda olduğunu xatırlatdım və sadə bir vətəndaş kimi qardaş dövlətə minnətdarlığımı dilə gətirdim.

Arkadaşım indiyədək heç kəsdən eşitmədiyim ifadələr işlətdi: "Dövlət başçınız da qətiyyətli və cəsarətlidir, ordunuz da peşəkar və müasir təchizata malikdir. Türkiyənin dəstəyi barədə dedikləriniz də həqiqətdir. Ancaq ən böyük həqiqət xalqın dövləti, Prezidenti və ordunu dəstəkləməsidir. Mustafa Kamal Atatürkün min illik tariximizdə əbədi yaşamasını türk xalqının misilsiz maddi, mənəvi, fiziki dəstəyi təmin etmişdi. Prezident İlham Əliyevin Azərbaycan tarixinə qalib sərkərdə kimi düşməsini də xalqın ona olan inamı, etimadı və cani-dildən göstərdiyi dəstək oldu. Xalqın bu miqyasda dəstəyini görmək liderin xoşbəxtliyidir".

Başqa bir fakt. Noyabrın ilk günlərində qardaş Qazaxıstanın Aktau şəhərində səfərdə idim. Xəzərin sahillərinə yaxın ərazidə – Astana meydanında, Abay Mədəniyyət Mərkəzinin qabağında iki qazaxla söhbət etdik. Məlum oldu ki, onlardan biri Aktyube şəhərindən gəlib. Azərbaycanlı olduğumu biləndə Aktyubedən gələn həmsöhbətim dedi ki, siz Zəngəzur dəhlizinin açılmasına nail ola bilsəniz, Prezidentiniz Türk dünyasının ən sevimli liderinə çevriləcək.

Aktaudan olan həmsöhbətimiz isə əminliklə dedi: "Azərbaycan o dəhlizi də açacaq, başqa planlarını da reallaşdıracaq. Çünki İlham Əliyev əksər dövlət başçılarının həsəd aparacağı səviyyədə xalqın dəstəyinə malikdir. Ona Azərbaycanda olan inama biz – Xəzərin bu tayındakı dostlarınız da qoşuluruq".

... Sonda "ən böyük həqiqəti zarafatla deyən" babalarımızın ənənəsinə qayıdaq. AZƏRTAC Prezident İlham Əliyevin bu il oktyabrın 19-da Zəngilan rayonunun Ağalı kəndinin sakinləri ilə görüşündən hazırladığı informasiyanın sonunda belə bir abzas da vermişdi:

**"Kişi sakin:** Mən şəhidlərin, qazilərin, şəhid analarının, atalarının qarşısında baş əyirəm. Onlara minnətdarıq. Bir də bir söz deyim gülməyin mənə, seçki komissiyasının sədri Məzahir Pənahova deyin kağız-kuğuzu korlamasın, bizim Prezidentimiz həmişəlik seçilib".

Fikrimizcə, xalq – iqtidar birliyinin miqyası barədə təsəvvür yaratmaq üçün bundan yaxşı nümunə ola bilməz.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 16 noyabr.- S.1;5.